# Referendum dünya mətbuatında

## Əksər ölkələrin mətbu orqanları referendumun şəffaf və demokratik keçdiyini yazıblar

**Sentyabrın 26-da ölkəmizdə keçirilən referenduma gözlənildiyi kimi, yaxın və uzaq xarici dövlətlərin mətbuat səhifələrində geniş və ətraflı yer verilib. Həmin ölkələrin mətbuat səhifələrində, televiziya ekranlarında referenduma çıxarılan məsələlər geniş şəkildə işıqlandırılıb. Bu sırada qonşu Rusiyanın KİV-ləri xüsusi fəallığı ilə seçilib. Məsələn, Rusiyanın nüfuzlu RİA ”Novosti” agentliyi ”Azərbaycan əhalisi referendumda prezidentlik müddətinin uzadılmasını dəstəklədi” başlıqlı məqalə ilə çıxış edib.**

”Azərbaycan əhalisi bazar ertəsi keçirilmiş referendumda Konstitusiyaya təklif edilən bütün dəyişiklikləri, o cümlədən prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə uzadılmasını və vitse-prezident institutunun tətbiqini dəstəkləyib”, - deyə müəllif yazıb. Qeyd edilib ki, MSK məntəqələrin təxminən 20%-də səsvermənin gedişini veb-kameralar vasitəsilə müşahidə etmək imkanı yaradıb: ”Bir qayda olaraq kameranın görmə sahəsinə komissiya üzvlərinin masaları, seçki qutuları və bəzi hallarda səsvermə kabinələri də düşürdü. Seçici fəallığı hər yerdə eyni deyildi: məsələn, Naxçıvan Muxtar Respublikasının Ordubad-Culfa seçki dairəsinin 7 saylı seçki məntəqəsində 5 dəqiqəlik müşahidə ərzində kamera qarşısında bir nəfər də seçici görünmədisə, paytaxt Bakıda yerləşən Xətai 2-ci seçki dairəsinin 13 saylı məntəqəsində eyni vaxtda 10 seçici var idi. Səsverməyə ağsaqqallar da maraq göstərib. Azərbaycanda onların sayı çoxdur. Məsələn, Sabirabaddakı seçki məntəqəsində səsverməyə 119 yaşlı Nübar Həsənova da qatılıb”. Bakı şəhərindəki məntəqələrə baş çəkən RİA ”Novosti”nin müxbiri seçicilərin səsverməyə böyük maraq göstərdiyinin şahidi olub. Məntəqə seçki komissiyalarından birinin sədri Eldəniz Ağayevin RİA ”Novosti”yə dediyinə görə, seçicilərin sayı o qədər çoxdur ki, bülleten çatdırmaq olmur: ”Referendum münasibətilə məntəqədə xüsusi bir bəzək-düzək gözə dəymirdi. Məntəqələr bağlanan vaxta seçici fəallığına görə İranla sərhəddə yerləşən 75 saylı Lənkəran-Masallı dairəsi 78,8% davamiyyətlə öndə idi, ən zəif fəallıq isə Bakının Sabunçu 1-ci seçki dairəsində qeydə alınıb - 55,7%. Səsvermə başlayandan cəmi 4 saat sonra MSK referendumu baş tutmuş elan edib: həmin vaxta ümumxalq səsverməsinə 30,6% seçici qatılmışdı ki, bu da referendumun baş tutması üçün lazım olan 25%-lik həddən çoxdur. Təklif olunan dəyişiklikləri səsverməyə qatılan seçicilərin yarıdan çoxu dəstəkləyərsə, referenduma çıxarılmış məsələlər qəbul edilmiş sayılır”. Daha sonra bildirilib ki, seçki məntəqələrinin çıxışında 5 təşkilat seçicilər arasında sorğu keçirib. ”Ümumilikdə onların nəticələri bir-birindən demək olar ki, fərqlənmir. İlk olaraq nəticələri Fransanın ”OpinionWay” təşkilatı açıqlayıb: onun keçirdiyi exit poll-un nəticələrinə görə, seçicilərin əksəriyyəti Konstitusiya dəyişikliklərini dəstəkləyib. Prezident səlahiyyətlərinin 7 ilədək artırılması təklifini respondentlərin 80%-dən çoxu dəstəkləyib. Amerikanın ”AJF & Associates” təşkilatı öz növbəsində bildirib ki, respondentlərin 88,5%-i Əsas qanuna təklif edilən yeniliklərin lehinə səs verib. Hər iki təşkilat səsvermə bülleteninin 29 bəndini mövzular üzrə 4 və ya 5 bloka bölüb. Məsələn, ”OpinionWay”in məlumatına görə, rəyi soruşulanların 88,9%-i Konstitusiyaya icra hakimiyyətinin strukturu ilə bağlı edilən dəyişikliklərə müsbət rəy verib, 88,8% isə prezidentliyə və deputatlığa namizədlərin yaş həddinin azaldılmasını zəruri hesab edib. Rəyi soruşulanların mütləq əksəriyyəti (89,3%) təhlükəsizlik sahəsinə, 90,1% isə insan haqlarına aid yeniliklərə səs verib.

Bazar ertəsi ilkin rəylərini bölüşən müşahidəçilər bütövlükdə referenduma hazırlığı və səsvermənin gedişini yüksək qiymətləndirib”. Daha sonra nəşrdə MDB Parlamentlərarası Assambleyasının müşahidə missiyasının rəhbəri İlyas Umaxanovun fikirləri yer alıb. O qeyd edib ki, Azərbaycan referenduma hazırlaşarkən Avropa Şurası və digər beynəlxalq təşkilatların qəbul etdiyi ən yüksək demokratiya standartlarını gözləyib. ”Azərbaycan rəhbərliyi vətəndaşların öz konstitusion hüquqlarından istifadə edərək, cəmiyyətin demokratik əsaslarının möhkəmlənməsi naminə səs verə bilməsi üçün lazım olan şəraiti yaratmışdı”, - deyə Umaxanov bildirib. Avropa Parlamentində çoxluğu təşkil edən Avropa Xalqlar Partiyasının nümayəndə heyəti də səsvermənin təşkilini tərifləyib. ”26 sentyabr referendumu açıq və azad şəkildə, ən yaxşı beynəlxalq standartlara uyğun keçirilib”, - deyə nəşr Avropa Parlamentinin üzvü, partiyanın vitse-prezidenti David Marionun firkirlərini yazıb. ”Müşahidəçilər məntəqələrin yanında hərbçi və polislərin olmadığını qeyd edib. Digər müşahidəçilər də Avropa Parlamentinin üzvləri ilə söhbətlər zamanı səsvermənin gedişindən məmnun qaldıqlarını deyiblər”, - deyə D.Mario vurğulayıb.

Öz növbəsində nüfuzlu **”Nezavisimaya qazeta”, ”Kommersant”** qəzetləri də referenduma və onun gedişinə həsr olunan məqalələrlə çıxış edib. Burada müzakirəyə çıxarılan məsələlərlə yanaşı, dəyişikliklərin qüvvəyə minməsindən sonra vəziyyətin necə olacağı ilə bağlı ekspertlərin fikirləri yer alıb.

Qardaş Türkiyə KİV-ləri də ümumxalq səsverməsi (referendum) ilə əlaqədar geniş məlumatlar yayıblar. Müxtəlif dillərdə yayılmış xəbərlərdə prezidentin və ailə üzvlərinin səsvermədə iştirakı, Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin mahiyyəti, səsvermənin azad və şəffaf keçirilməsi, xarici müşahidəçilərin referendumla bağlı ifadə etdikləri müsbət fikirlər əks olunub.

www.aa.com.tr, www.iha.com.tr, www.timeturk.com, www.haberturk.com, www.yenisafak.com, www.milligazete.com.tr, www.ntv.com.tr, www.turkiyegazetesi.com.tr və s. media qurumları tərəfindən oxuculara müxtəlif dillərdə təqdim olunan xəbərlərdə referendumun yüksək səviyyədə təşkil edilməsi, seçici sayı, seçici fəallığı, ümumxalq səsverməsinin nəticələri və s. məqamlara dair məsələlər diqqətdə olub. Türkiyə televiziya kanalları ilə bərabər bəzi xəbər portalları da səsvermə prosesindən videomateriallar yayıblar. Məsələn, **”Habertürk”də** dərc edilən ”Azərbaycan Konstitusiya dəyişikliyinə ”hə” dedi” başlıqlı məqalədə MSK-nın ölkə Konstitusiyasının 23 maddəsinə dəyişiklik edilməsi və 6 yeni maddənin əlavə olunması üçün təşkil olunmuş referendumun ilkin nəticələrini açıqladığından bəhs edilib. ”Xalqın səsverməsinə təqdim edilmiş 29 maddənin hər biri üzrə nəticələri ayrı-ayrı açıqlayan komissiya bildirib ki, əldə olunmuş nəticələr seçicilərin 86,6%-nin Konstitusiya dəyişikliyinə ”hə” dediyini göstərib. Ölkədə qeydiyyatdan keçmiş 5 milyon 260 min seçicidən 3 milyon 671 mininin səs verdiyi referendumda seçici fəallığı 69,7% olub. Seçicilər Bakı və digər rayonlarda yaradılmış 5 min 627 məntəqədə səs verib. Xaricdə yaşayan Azərbaycan vətəndaşları isə referenduma 38 nöqtədə qurulmuş seçki məntəqəsi vasitəsilə qatılıb. Referendumun gedişini 53 min 300 yerli, 117 beynəlxalq müşahidəçi izləyib”. Daha sonra Konstitusiya dəyişikliyinin gətirəcəyi yeniliklərdən bəhs edilib. ”Prezident İlham Əliyevin təklifi ilə xalqın səsverməsinə çıxarılmış dəyişikliklər dövlət başçısının səlahiyyət müddətinin 5 ildən 7 ilədək artırılmasını, prezident seçilmək üçün müəyyənləşdirilmiş minimum 35 yaş məhdudiyyətinin ləğvini, dövlət başçısına növbədənkənar prezident seçkisi elan etmək səlahiyyətinin verilməsini də nəzərdə tutur.

Dəyişikliklər arasında ölkədə Birinci vitse-prezident və vitse-prezident vəzifələrinin yaradılması da var. Bu vəzifələrə təyinat və vəzifədən azad etmək səlahiyyəti prezidentdə olacaq. Prezidentin birinci müavininə toxunulmazlıq hüququ veriləcək. Dövlət başçısı olmadığı hallarda onun bütün səlahiyyətləri Birinci vitse-prezidentə keçəcək. Dəyişikliklərlə əsasən, Konstitusiyanın ”Mülkiyyət hüququ” hissəsinə ”xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur” və ”sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədilə torpaq üzərindəki mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər” maddələri də əlavə olunacaq”, - deyə qeyd edilib.

İran İslam Respublikasının **İRNA** dövlət xəbər agentliyinin saytında ümumxalq səsverməsi (referendum) haqqında material yerləşdirilib. Yazıda qeyd edilib ki, sentyabrın 26-da Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə səsvermədə iştirak edib. Nəzərə çatdırılıb ki, Azərbaycan Prezidenti tərəfindən Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər ölkənin inkişafına və dövlətin möhkəmlənməsinə xidmət edəcək. Materialda səsvermənin sabit və demokratik şəraitdə keçdiyi vurğulanıb. Qeyd olunub ki, 2002 və 2009-cu illərdə də Azərbaycanın Konstitusiyasına ümumxalq səsverməsi yolu ilə dəyişikliklər edilib.

Referendum ərəbdilli KİV-lərdə də geniş işıqlandırılıb. İnformasiyalarda prezident İlham Əliyevin və ailə üzvlərinin səsvermədə iştirakı, Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin mahiyyəti, səsvermə prosesi ilə bağlı məlumatlara yer verilib. **”24.ae”, ”Ahbarak”, ”Fananews”** və bir sıra digər media qurumları tərəfindən təqdim olunan xəbərlərdə referendumun yüksək səviyyədə təşkil edilməsi, seçici fəallığı, ümumxalq səsverməsinin ilkin nəticələri və s. məqamlara dair məsələlər oxucuların diqqətinə çatdırılıb.

**Kamran**